# Naftalanda şəhid və qazi ailələrinin övladları üçün Novruz şənliyi keçirilmişdir

**Naftalanda şəhər icra hakimiyyətinin və Chinar Hotel & SPA-nın birgə təşkilatçılığı ilə şəhid və qazi ailələrinin övladları üçün Novruz şənliyi təşkil edilmişdir.**

Ulu Öndər Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda canından keçmiş Vətən oğullarının xatirəsi birdəqiqəlik sükutla yad edildikdən sonra Naftalan Şəhər İcra Hakimiyyətinin başçısı Vüqar Novruzov çıxış edərək diqqətə çatdırmışdır ki, xalqımızın zəngin milli dəyərlərini, adət-ənənələrini



özündə yaşadan Novruz bayramı milli varlığın rəmzinə çevrilmişdir. Novruzun dövlət səviyyəsində keçirilməsinin Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlı olduğunu deyən V.Novruzov bildirmişdir ki, bu bayram indi ölkəmizdə ümumxalq şənliyi kimi geniş qeyd olunur.

Sonra şəhid və qazi övladlarının iştirakı ilə Novruz tonqalı qalanmışdır. Keçəl və Kosanın şən zarafatları tonqal ətrafına yığışan uşaqlar tərəfindən böyük coşqu ilə qarşılanmış, uşaqlarda xoş bayram ovqatı yaratmışdır.

Şəhid və qazi övladlarına bayram hədiyyələri təqdim olunduqdan sonra tanınmış incəsənət ustaları konsert proqramı ilə çıxış etmişlər. Sonda xatirə şəkli çəkdirilmişdir.

*Sabir ƏLİYEV,*
*"Azərbaycan"*

Azərbaycan. - 2023.-19 mart.- S.15.